# ŞƏRQ FƏLSƏFƏSİ

(IX-XII əsrlər)

Азерб. …ул. Республ…
…ИОТ…
им. М. Ф. …хундова

Bakı Dövlət Universiteti nəşriyyatı
BAKI -1999



# ƏBUNƏSR FARABİ

(873-950)

*İslam aləmində peripatetik fəlsəfənin inkişaf etdirilməsində Sır- Dərya çayı üzərindəki Farab şəhərində türk ailəsində anadan olmuş Əbunəsr Farabinin xidməti əvəzsizdir. Təbiiyyat, riyaziyyat, mexanika, astronomiya və fəlsəfənin bütün sahələrinə dair dəyərli əsərlər yazmış bu böyük sima haqqında ərəb mənbələrindən birində deyilir: "Əbunəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzluğ Farabi türkdür, məşhur mütəfəkkirdir, məntiq, musiqi və başqa elmlərə dair əsərlərin müəllifidir. O müsəlmanların ən böyük filosofudur. Onlardan heç kəs öz elmlərində onun səviyyəsinə çatmamışdır".*

*Fəlsəfə tarixçisi Zəhirəddin Beyhəqinin (1105-1169) fikrincə, Əbunəsr Farabidən "qabaqki islam alimləri içərisində ondan fəzilətlisi yoxdur".*

*Filosofun haqqında çox dolğun mə"lumat verən İbn Xəllikan (1211-1281) qeyd edir ki, Əbunəsr Farabi "öz ölkəsində doğulub boya-başa çatmış, Bağdada gəlib çıxana qədər səfərlərdə olmuşdur. O, türk dilini və bir neçə başqa dili bilirdi, ərəb dilini də öyrənib dərindən mənimsədi, sonra hikmət (fəlsəfə) elmləri ilə məşğul oldu".*

*Aristotel tə"liminin islam aləmidə dürüst anlaşılmasında müstəsna xidməti olan Farabi Şərq filosofları tərəfindən onun "Birinci tə"lim" adlandırılan əsərlər külliyatını yunan orijinalı əsasında redaktə edib yenidən işləməklə "İkinci tə"lim" yaratmış, nəticədə Birinci müəllimdən sonra İkinci müəllim (əl-Müəllim əs-Sani) kimi tanınmışdır.*

*Farabi 949-cu ildə Misirdə səfərdə olmuş və oradan Suriyaya dönmüşdür. Mütəfəkkir 950-ci ildə noyabrın ikinci, yaxud dekabrın birinci yarısında Dıməşq şəhərində vəfat etmişdir.*

*Farabi yaradıcılıq işini iki istiqamətdə aparmışdır: 1) öz sələflərininin kitablarına şərhlər yazmış; 2) yeni əsərlər qələmə almışdır. Aristotelin "Orqanon" məntiq əsərləri toplusuna, "Metafizika" kitabına, "Təbii harmoniya", "Səma və aləm"*

*traktatlarına, habelə Porfirinin "Kateqoriyalara giriş"(" İsaqoqe"), Aleksandr Afrodisinin "Nəfsə dair" və Ptolemeyin " Almagest" kitablarına Farabinin yazdığı şərhlər mütəxəssislərin sonsuz rəğbətini qazanmışdır.*

*Farabi "Fəlsəfənin öyrənilməsindən qabaq nəyin müqəddimə verilməsi haqqında" ("Fi ma yənbəği ən yüqəddimə qəblə təəllüm əl- fəlsəfə"), "Xoşbəxtlik qazanma"("Təhsil əs-səada"), "Elmərin siyahıya alınması"("İhsa əl-ülum"), "Metafizika kitabında Aristotelin məqsədi" ("Ağrad Aristutalis fi kitab Ma bə"d ət-təbiə"), "İki filosof Aristotel və Platon görüşləri arasında ümumilik" ("əl-Cəm" beynə ra"y əl-həkimeyn- Arastu və Aflatun"), " Fəzilətli şəhər əhlinin baxışları" ("Ara əhl əl-mədinət əl-fadilə"), " Əqlə dair məqalə" ("Məqalə fi-l-əql") və i.a. orijinal əsərlərin müəllifidir. Onun elmi-fəlsəfi irsi böyük fikir bahadırları üçün zəngin bilik xəzinəsi, tükənməz ideya qaynağı olmuşdur.*

*Farabinin geniş mündəricəli əsərləri yalnız ərəb orijinalında qalmayıb, orta əsrlərdə latın dlinə, müasir dövrdə isə özbək, qazax, türk, fars, habelə rus, ingilis, alman, fransız və başqa dünya xalqlarının dillərində yayılmışdır.*

*"Məsələlərin mahiyyəti" ("Üyun əl-məsail") traktatı Yuhənna Qümeyrin "Farabi"( I hissə), Beyrut, 1954-cü il nəşrindən tərcümə edilmişdir.*